**Emil Ağayev**
*ADRA, magistr*

# ALTAY HACIYEV YARADICILIĞINDA "QARABAĞ" MÖVZUSU

**Açar sözlər:** Altay Hacıyev, Qarabağ, Şuşa, Xurşudbanu Natəvan, kompozisiya, obraz.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan torpaqları yadelli işğalçılar tərəfindən işğal olunmağa başlanıldı. Artıq təsviri sənətimizdə də Qarabağ mövzusu müxtəlif rəssamlar tərəfindən işlənməyə və rənglər vasitəsilə bu faciənin reallığı çatdırılırdı. Asif Azərelli, Xanlar Əhmədov, Ağaəli İbrahimov, Ucal Haqverdiyev və başqa sənətkarlar öz kompozisiyalarında bu mövzuya müraciət edirdilər. Qarabağın və onun gözəlliklərini öz fırçasıyla əks etdirən sənətkarlardan biridə Azərbaycanın xalq rəssamı Altay Hacıyevdir.

Altay Hacıyev 1931-ci ildə tanınmış rəssam Əmir Hacıyevin ailəsində dünyaya göz açmışdır. Əmir Hacıyev (1899-1972) XX əsr Azərbaycan təsviri sənətində xüsusi yer tutur. O, Qafqazın əhəmiyyətli mədəni və bədii mərkəzini təmsil edən Şuşada göz açıb və böyümüşdü. Azərbaycanın qədim torpağı, Qarabağ istedadları ilə zəngin olmuşdu. Bu dövrdə erməni terroruna baxmayaraq, burada unikal bir mədəniyyət inkişaf etmişdir: əfsanəvi Natəvan, Cabbar Qaryağdı, Mir Movsüm Nəvvab və b. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində burada xüsusi yaradıcılıq aurası yaranmışdı və gənc olan Əmir Hacıyev bu auranın təsirinə düşmüşdü. Altay Hacıyevin rəssam kimi formalaşmasında tanınmış teatr rəssamı xalası Bədurə Əfqanlınında böyük rolu vardır. Teatr hər bir xalqın mədəni həyatının əsasını təşkil edir. Azərbaycan səhnə sənətinin inkişafında görkəmli Azərbaycan aktyorları, rejissorları ilə yanaşı, yaradıcılığı həmişə demokratik və humanizm ideyaları ilə seçilən, xalq həyatına dərindən bələd olan teatr rəssamlarının da rolu danılmazdır. Altay Hacıyev müxtəlif janr, texnika, üslublarda işləməyə qadir bir rəssamdır. Onun yaradıcılığı özündə kitab və dəzgah qrafikasını, monumental və dəzgah rəngkarlığını üzvi şəkildə birləşdirir.

Altay Hacıyevin Qarabağa həsr etdiyi kompozisiyalarının mərkəzi obrazı Xurşudbanu Natəvandır. 1991-ci ildə isə rəssam tamaşaçılara bir neçə illik yaradıcılıq axtarışlarının nəticəsi olan, Azərbaycan tarixinə şair, rəssam və dövlət xadimi kimi daxil olmuş Xurşudbanu Natəvana həsr etdiyi silsilə rəngkarlıq və qrafika əsərlərini təqdim etdi. Xeyirxah əməllər sahibi olan xan qızının həyat yolunu, mənəvi dünyasını müxtəlif

tarixi-mədəni hadisələrlə vəhdətdə əks etdirən bu lövhələrin bədii dəyəri ilə yanaşı, tarixi-etnoqrafik mahiyyət daşıdığını qeyd etmək lazımdır. "Quşlarla söhbət", "Xarı bülbül", "Məclisi-Üns", "Natəvan və Düma", "Şuşaya su kəmərinin çəkilməsi" və s. kompozisiyaları bu qəbildəndir. "Quşlarla söhbət" kompozisiyasında rəssamın şanapipiyi müjdə rəmzi kimi kompozisiyanın məna-məzmun yükü daşıyıcısı seçməsi təsadüfü deyil. Belə ki, insan ömrünün bütün çağlarında müjdə soraqlıdır. Elə taleyinə çox təzadlı ömür payı düşmüş Natəvan da rəssam təqdimatında öz payının həsrətindədir.

"Ailə" kompozisiyası üçün bəyaz kolorit, bəlkə də təsadüfi seçilməyib. Natəvanın poetik ilhamının tarıma çəkilməsi, bədiilik notlarına köklənməsi çox vaxt keçirdiyi ailə sarsıntıları, onu izləyən itkilər ilə bağlı olub. Elə əsərdə də oğul-qız əhatəsi belə şairənin varlığını isitmir, onu bələndiyi ağrılı yaşantılarının əsirliyində saxlayır [1,səh 7].

Xurşudbanu Natəvana həsr olunan kətan üzərində yağlı boya ilə işlənən triptixdə Altay Hacıyevin yaradıcılığında mühüm yer tutur. Rəssam klassik üslubda işlədiyi bu əsərdə Azərbaycanın gözəl bir xanımını təsvir etməklə yanaşı, həmçinin bu obrazın timsalında milli geyimlərimizi, hətta geyimin üzərində istifadə edilmiş xırda ornamentləri belə çox dəqiqliklə tamaşaçıya çatdırmışdır. Qarabağ hakimi Mehdiqulu xanın qızı olan Natəvanı rəssam öz xəyal dünyasında, şeirlər aləmində təsvir edir. Əlində kitab təsvir olunmuş şairə sanki şeirlər dünyasına qərq olub və nə isə düşünür. Triptix formasında işlənən bu əsərdə şairənin sol tərəfində yanar şam və ətrafında dövr edən pərvanələr, sağ tərəfdə isə gül üzərində əyləşmiş quş təsvir olunub. "Xan qızı" yanar şamın ətrafında dövr edərək özlərini oda vuran pərvanələri xəyallara qərq olaraq seyr edir və o, sanki bu zavallı pərvanələrə həsəd aparır. Rəssam Natəvan obrazını tamaşaçıya çatdırmaq üçün onu yaşadığı mühitin, Şuşanın füsunkar təbiətinə xas olan "xarı bülbül" ilə vəhdət şəklində təsvir etmişdir. Yaradıcılığında lirik mövzulara daha çox müraciət edən şairə bu əsərdə də lirik notlar üzərində əks olunur [1,səh8-9].

Altay Hacıyev Natəvan dünyasını bütün əlvanlığı ilə göstərmək üçün onu həm də yaşadığı mühitlə vəhdətdə göstərib. Bunun üçün rəssam Şuşanın füsunkar təbiəti ilə yanaşı, şairənin müasirlərinin obrazlarından da geniş istifadə etmişdir. Sənətkarın yaratdığı "Mir Möhsün Nəvvab" və "Qasım bəy Zakir" əsərlərinin onun "Natəvan-Şuşa" adlı sərgisinə daxil edilməsi də XIX əsr Şuşa mədəni mühitini miqyaslı göstərmək istəyindən irəli gəlmişdi. Xurşudbanu Natəvanın keçirdiyi hisslər rəssamın hər bir kompozisiyasında təsvir olunur. Qasım bəy

Zakir daima onun yanına gəlib, hər görüşündə şeirlər oxuyurdu. Aleksandr Düma ilə şahmat oynaması və həmin şahmatı Natəvana bağışlaması süjetini də Altay Hacıyev rənglər vasitəsilə təsvir etmişdir.

Sənətkar yaradıcılığında Şuşaya həsr etdiyi mənzərələri də mühüm yer tutur hansı ki, kompozisiyalarda rənglər vasitəsilə Qarabağın beşiyi sayılan diyarın təbiəti, dağları, küçələri və məscidi təsvir olunmuşdur. Altay Hacıyev bu kompozisiyalarında ölkəmizin tarixən haqsızlıqlara məruz qalmasını öz fırçası vasitəsilə tamaşaçıya çatdırır. Rəssamın Qarabağın əsrarəngiz təbiəti fonunda bir neçə kompozisiyaları yaratmışdır. "Bahar ovqatı " adlı rəngkarlıq nümunəsində isə təravətli yaz fəsli, təbiətin gözəli olan ceyran və gənc xanım obrazı bir-birini tamamlayır. Rəssam arxa fonda uca dağların dumanlı vəziyyətini, günəşin çıxmasını təsvir etmişdir. Ön hissədə isə gənc, bahar ovqatlı xanımın təbiətə baxaraq kitabı vərəqləməsi və qarşısındakı elementlərlə bəzənmiş su qabından bulaq suyu içməsi isti rənglər vasitəsilə obrazlı şəkildə tamaşaçının qarşısında səhnə kimi əks etdirilir. "Bulaq başında" adlı kompozisiyasında Altay Hacıyev kəndlərdə olan bulaqdan su götürmə səhnəsini öz fırçasıyla canlandırmışdır. Rəssam xanımların arxa fonunda onların daxili aləmi kimi gözəl olan təbiət təsvir etmişdir.

Milli adət-ənənələrimizi əks etdirdiyi əsərləri arasında "Qız evində toy" adlı tablosu da xüsusi yer tutur. Kompozisiyada sandıq üstündə oturan gənc qız və onun ətrafındakı, əllərində xonça, güzgü tutan xanımlar tamaşaçının diqqətini cəlb edir. "Oğlan evində toy" adlı kompozisiyasında isə sanki çal-çağırlı toy gözümüzün önündə canlanır, arxa fonda ifa edən musiqiçilər, ön tərəfdə isə gənc bəy, qırmızı lenti olan qoç və toyu maraqla izləyən balaca oğlan təsvir olmuşdur. Rəssam hər iki rəngkarlıq nümunəsində işıq-kölgədən, məkan həllindən, isti rənglərdən məharətlə istifadə etmişdir, Şuşada olan toy məclisini tamaşaçılara rənglər vasitəsilə çatdırmışdır.

## ƏDƏBİYYAT


1. Əliyev Z. Azərbaycanın Xalq Rəssamı Altay Hacıyev, Bakı, 2011, 143s.
2. Наджафов М. Алтай Гаджиев, Баку, Ишыг, 1974

**Резюме**

***Ключевые слова***: Алтай Гаджиев, Карабах, Шуша, Хуршудбану Натаван, композиция, образ.

В этой статье описывается состав Карабаха, который занимает важное место в творчестве Алтая Гаджиева. В частности, в этой статье анализируется образ Хуршудбану Натавана и связанных с ним сцен.

**Summary**

***Key words***: Altay Hajiyev, Garabagh, Shusha, Khurshudbanu Natavan, composition, image

This article describes the composition of Garabagh, which occupies an important place in the work of Altay Hajiyev. In particular, this article analyzes the image of Khurshudbanu Natavan and related scenes.